# Neftçalada maarifləndirici tədbir təşkil olunmuşdur

**Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xol Qaraqaşlı kənd tam orta ümumtəhsil məktəbində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda maarifləndirici tədbir keçirilib.**



İştirakçılar öncə Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin, Konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Çıxış edənlər bu cür tədbirlərin əhəmiyyətindən bəhs edərək müstəqil Azərbaycanın Konstitusiyasının yaradılmasında Heydər Əliyevin rolunu, Konstitusiyanın müddəalarının daha dərindən öyrənilməsinin vacibliyini diqqətə çatdırıblar. Qeyd olunub ki, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi və gələcək inkişafını şərtləndirən hüquqi islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla icra edilir. O da vurğulanıb ki, hər bir vətəndaş Konstitusiya və qanunlara əməl etməli, üzərinə düşən öhdəlikləri yerinə yetirməli, demokratik prinsipləri qorumalıdır.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 may (№103).- S.10.